**Orucoğlu, Z**. Vətən sevgisinə tapınan ömür // 525-ci qəzet. - 2025. - 6 may. - **№ 77**. - S. 13.

**1995-ci il noyabrın 29-da Cəlilabad rayonunun Alar kəndində anadan olan Taleh Zaur oğlu Əlizadə doğma Azərbaycanın hər qarışına ürəkdən bağlı idi. Vətən sevgisinə tapınan, onun azadlığı uğrunda həyatını qurban verən qəhrəmanın ömür yolu qısa olsa da, qərinələr boyu unudulmayacaq.**

Azərbaycan Ordusunun əsgəri olan Taleh Əlizadə Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Taleh Əlizadə oktyabrın 18-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Taleh Əlizadə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Taleh Əlizadə ailəli idi. Onun bir oğul övladı yadigar qalıb.